# XAÇMAZ: müstəqillik illərinin uğurları

*Biz Xaçmaz rayonunun timsalında bu gün Azərbaycanda apardığımız siyasətin nəticələrini görürük.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

❒ ***Bu günlər ölkəmizin hər yerində doğma Azərbaycanımızın dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü təntənə ilə qeyd edilməkdədir. 25 il, əslində, tarix üçün elə də böyük bir dövr deyil. Amma respublikamızın bütün sahələrdə əldə etmiş olduğu çox nəhəng uğurlar baxımından dövlət müstəqilliyimizin ilk rübünü təşkil edən bu illər tariximiz üçün qərinələrə, əsrlərə, minilliklərə bərabər illər olmuşdur. Bu illər ərzində ölkəmiz ulu öndər Heydər Əliyevin müəyyən etdiyi strateji hədəflərə doğru inamla irəliləyərək, müasir dünyanın bir sıra nüfuzlu beynəlxalq təşkilatlarının bərabər hüquqlu üzvü olan qüdrətli dövlətə çevrilmişdir.***

Yüksək inkişaf tempi ilə seçilən dayanıqlı iqtisadiyyatı, balanslı xarici siyasəti, qüdrətli ordusu və ölkədə hökmran olan möhkəm daxili siyasi sabitlik mühiti Azərbaycanın bütün parametrlər üzrə, nəinki Cənubi Qafqaz və MDB məkanının, bütövlükdə, müasir dünyamızın aparıcı dövlətlərindən birinə çevrildiyinin göstəricisidir. Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu dövlət quruculuğu siyasəti sayəsində Azərbaycan cəmiyyəti getdikcə daha artıq monolitləşir, daxili və xarici siyasət sahəsində yeni-yeni zəfərlər əldə olunur. Son on il ərzində birbaşa şəxsən ölkə Prezidentinin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən regionların inkişafı dövlət proqramları respublikanın bütün bölgələrinin həm sosial-iqtisadi cəhətdən, həm də mədəni quruculuq işləri baxımından inkişafında yeni bir mərhələ olmuşdur. Bu istiqamətdə həyata keçirilən genişmiqyaslı, həm də kifayət qədər yüksək maliyyə tutumlu iri layihələr nəinki şəhər və rayonlarımızın, hətta ən ucqar kəndlərimizin belə simasını dəyişmişdir. Dövlət başçımızın 11 oktyabr tarixli sərəncamında deyildiyi kimi “Ötən 25 il Azərbaycan xalqı dövlət quruculuğu prosesində ən ümdə amal, arzu və niyyətlərini gerçəkləşdirərək bütün sahələrdə əldə etdiyi nailiyyətlərlə haqlı olaraq fəxr edə bilər”.



Böyük qürur hissi ilə deyə bilərik ki, bu gün Azərbaycanın hətta ən ucqar regionları belə ölkə rəhbərliyinin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub. Hər sahədə uğurlu göstəriciləri diqqət çəkən belə rayonlardan biri də ölkəmizin “şimal qapısı” olan Xaçmaz rayonudur. Xaçmaz müstəqillik illərində Azərbaycan regionlarının keçmiş olduğu coşqun və hərtərəfli inkişafın gözəl nümunəsidir.

Son illər Xaçmaz şəhərində həyata keçirilən tikinti, abadlıq və quruculuq işlərinin diqqətçəkən istiqamətlərindən biri küçə, prospekt və meydanların girişində zövqlə ucaldılan və hər biri ayrılıqda çox nadir sənət və memarlıq nümunəsi kimi dəyərləndirilməyə layiq olan tağ-qapılardır. Həmin tağ-qapılardan biri şərti olaraq Xaçmazın cənub, digəri isə şimal qapısı hesab olunur. Əslində, Xaçmaza yolu düşənlərin bu rayon haqqında ilk xoş təəssüratı da elə həmin qapılardan başlanır. Uzun illər idi ki, insanlar Xaçmaza da, ölkəmizin mühüm istirahət ünvanlarından olan Nabrana da, adətən, yaz və yay aylarında gələrdilər. Görünür, uzun illərin “Çıxdın yaza, gəl Xaçmaza” deyimi də bu zəmində yaranıb. Çünki yaz-yay aylarında bu yerlərdəki hər ağac kölgəsi, hər bulaq başı da arzu olunan bir istirahət guşəsi idi. Payız-qış mövsümündə isə nə Xaçmazda, nə də Nabranda bir gecə belə qalmaq üçün rahat və isti məkan yox idi. İndi maşallah, Xaçmazın hər bir guşəsi arzu olunan istirahət məkanına çevrilib. Rahat yollar, çoxulduzlu otellər, geniş park və seyrəngahlar, bir-birindən cazibədar istirahət ocaqları və müasir standartlara cavab verən digər xidmət infrastrukturu ilin bütün fəsillərində qonaqlara gəl-gəl deyir. Gəlin, həmin qonaqlarla birlikdə biz də növbəti dəfə Xaçmazı gəzək, daha çox yaddaqalan ünvanlarla tanış olaq.



Cənub qapısından (buna şərti olaraq “Bakı qapısı” da demək olar) Xaçmaza daxil olduqda, ilk diqqəti cəlb edən şəhərin Bakı prospekti boyunca salınan və 11 hektar sahəni əhatə edən Çənlibel park-seyrəngahıdır. Orada insanların ilin bütün fəsillərində gəzintisi və istirahəti üçün hər cür şərait yaradılıb. Parkın girəcəyində Azərbaycanın xalq qəhrəmanı Koroğlunun at belində əzəmətli heykəli ucaldılıb. Dövlət bayrağı meydanı və Dövlət bayrağı muzeyi də bu ərazidədir. Orada 85 metr hündürlükdə dalğalanan Azərbaycan bayrağını çox-çox uzaqlardan belə asanlıqla seyr etmək mümkündür.

Çənlibel parkında qədim üslubda tikilmiş Lampa abidəsi və ondan çox da uzaqda olmayan Xaçmaz modul elektrik stansiyası arasında həm oxşarlıq, həm də çox ciddi təzadlar var. Lampa bir növ xaçmazlıların əski məişətinin, modul stansiya isə bugünkü Xaçmazın inkişaf və qüdrətinin göstəricisidir. O lampalar ki, çox da uzaq olmayan keçmişdə öz közərtisi ilə Azərbaycan kəndlərindəki kiçik daxmaların darısqal otaqlarını belə yetərincə işıqlandıra bilmirdi. 2006-cı ildə istifadəyə verilmiş 87 meqavat gücü olan Xaçmaz modul stansiyası isə Xaçmaz rayonu ilə yanaşı, qonşu Quba və Qusar rayonlarının da elektrik enerjisinə olan tələbatını tam ödəyir.

Yeni istifadəyə verilmiş Xaçmaz regional biznes mərkəzi, Cənubi Qafqazın ən yeni və nəhəng emal müəssisələrindən olan Qafqaz konserv zavodu da Çənlibel parkından çox da uzaqda deyil. Parkın qonşuluğunda orta əsr memarlığı üslubunda tikilmiş günbəzlər ərazisində son vaxtlar daha bir yeni bina ucaldılıb. Bu, Xaçmaz Rayon Kənd Təsərrüfatı İdarəsinin inzibati binasıdır.

Xaçmazda hansı ünvana getsən, orada ulu öndər Heydər Əliyevə olan xüsusi bir ehtiram və sevginin şahidi olursan. Belə yeni və izdihamlı ünvanlardan biri də Bakı prospektindəki 4 hektar sahəni əhatə edən Heydər Əliyev seyrəngahıdır. Seyrəngaha Heydər Əliyev Bulaq Kompleksi, İlham Əliyev Bulaq Kompleksi, Samovar Kompleksi və Heydər Əliyev prospektinin giriş qapısı kompleksi daxildir. Seyrəngah ərazisində ulu öndər Heydər Əliyevin və möhtərəm Prezidentimiz İlham Əliyevin mozaika üslubunda portretləri işlənib. Ulu öndərin adı ilə bağlı neçə-neçə digər ünvanlar da Xaçmazın bugünkü görkəmindən xəbər verir. Xatırladaq ki, hələ 2005-ci ildə respublika rayonları içərisində birincilər sırasında Xaçmazda Heydər Əliyev Mərkəzi tikilib. 2010-cu ildə mərkəz əsaslı şəkildə yenidən qurulub. Mərkəzin 2015-ci ildə inşasına başlanan yeni binasının isə bu il sentyabrın 8-də Prezident İlham Əliyevin Xaçmaza növbəti səfəri zamanı açılışı olmuşdur. Xatırladaq ki, bu, Prezident İlham Əliyevin son illər Xaçmaza 7-ci səfəri idi. Fikrimizcə, bu faktın özü ölkə Prezidentinin Xaçmaz rayonunun timsalında regionların inkişafına son dərəcə həssas yanaşdığının daha bir bariz göstəricisidir.



Heydər Əliyev Mərkəzinin yeni ikimərtəbəli binası, sözün tam mənasında, Xaçmazın müasir simasını müəyyən edən olduqca nadir memarlıq nümunəsidir. 2180 kvadratmetr sahəsi olan mərkəz bir konfrans zalı, üç sərgi salonu, elektron kitabxana, rəsm studiyası, kompüter zalı və 300 nəfərlik kino-zaldan ibarətdir. Yeni açılmasına baxmayaraq, artıq orada müxtəlif dərnək və kurslar fəaliyyət göstərməkdədir. Xaçmazlı qızlar orada çox böyük həvəslə tikiş və toxuculuq, o cümlədən xalçaçılıq sənətinin sirlərini öyrənirlər. Heydər Əliyev Mərkəzinin Xudat şəhər və Yalama kənd filialları da neçə illərdir ki, insanların üzünə açıqdır.

Xaçmaz Azərbaycanın ən çox muzeyləri olan şəhərlərindən biridir. Özü də bu muzeylər təyinat istiqaməti və tərtibatı baxımından digər rayon və şəhərlərdəki muzeylərdən xeyli dərəcədə fərqlənir. Məsələn, Xaçmazdakı Şəxsiyyətlər Muzeyi ərazisinin genişliyi, oradakı abidələrin sayı və orijinal tərtibatı baxımından bütün oxşar muzeyləri açıq-aşkar üstələyir. Bir hektarlıq sahəni əhatə edən muzeydə Azərbaycanın klassikləri, ziyalıları, ədibləri və görkəmli sənət adamlarının büstləri qoyulub. Muzeyin ərazisi boyunca orta əsr memarlıq üslubunda işlənmiş taxta-şkaflar Azərbaycan klassiklərinin yaradıcılığından seçmələr və onlar əsasında işlənmiş miniatürlərlə daha da mənalandırılmışdır.

2013-cü ildə Şəxsiyyətlər Muzeyi ərazisində istifadəyə verilən və açılışında ölkə Prezidenti İlham Əliyevin də iştirak etdiyi Tarix – Diyarşünaslıq Muzeyi də son illərin möhtəşəm tikililərindəndir. Mübaliğəyə yol vermədən deyə bilərik ki, özünün orijinal memarlıq üslubu və genişliyi baxımından Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyinin analoqu yoxdur. 2100 kvadratmetr sahəsi olan ikimərtəbəli muzeyin birinci mərtəbəsi başdan-başa son dərəcə nəfis tərtib olunmuş rəsm qalereyasından ibarətdir. Açığını deyim ki, orada olan hər kəs yerli rəssamların fantaziyasının məhsulu olan bir-birindən mənalı rəsm əsərlərinin nümayiş etdirilməkdə olduğu rəsm qalereyasını çox böyük heyranlıqla seyr edirlər. Elə Xalça Muzeyi, Dostluq Muzeyi, Döyüş Şöhrəti Muzeyi və görkəmli dövlət xadimi Əziz Əliyevin xatirə muzeyi də Xaçmazın görməli mədəniyyət ocaqlarındandır. Xaçmazlıların müqəddəs and yeri olan Şəhidlər xiyabanı, insanların ibadət və inanc yeri olan Cümə məscidi, Şahmat məktəbi, mədəniyyət sarayı, Olimpiya İdman Kompleksi, uşaq kitabxanası, gənclər kitabxanası, orijinal memarlıq üslubunda inşa olunan saat qüllələri, müasir uşaq bağçaları və məktəblər, həm dövlət, həm də özəl sektora aid bir-birindən yaraşıqlı ofis binaları, şəhərin bir neçə yerində insanların təhlükəsiz gediş-gəlişinə xidmət edən yeraltı və yerüstü keçidlər, bir-birindən abad və yaraşıqlı küçə, prospekt və meydanlar – bütün bunlar Xaçmazın müstəqillik dövrü tarixinin ən yeni reallıqlarıdır. Dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında Prezident sərəncamında deyildiyi kimi, tikilən yeni məktəblər, müalicə ocaqları, muzeylər, olimpiya mərkəzləri, mədəniyyət müəssisələri və istirahət ocaqları, bütövlükdə, ölkədə sosial həyatın yaxşılaşmasına xidmət edir.

Xaçmazın müstəqillik dövrü reallıqlarından bəhs edərkən Azərbaycanın tarixində xüsusi xidmətləri olan görkəmli dövlət xadimi Şah İsmayıl Xətainin, xalq qəhrəmanları Babəkin və Koroğlunun Bakı prospekti boyunca ucaldılmış möhtəşəm abidələrini xüsusi olaraq qeyd etmək istərdim. Hər üç abidə dövlətlərarası magistral yol üzərindədir. Gələnlər də, gedənlər də bu abidələrin yanından keçir. Bunun nə demək olduğunu mənalandırmağa ehtiyac varmı?! Təbiidir ki, hər kəs şərhsiz də anlayır ki, bu insanlar kim olub və hansı xidmətləri var. Bu, o deməkdir ki, uzaq keçmişdə də, orta əsrlər dövründə də bu Vətənin, bu dövlətin və bu xalqın keşiyində duran igid ərənlərimiz olub. Deməli, bu Vətənə, bu torpağa başqa niyyətlə baxmaq olmaz. Əgər nə vaxtsa kimlərsə çaşarsa, onda hər obadan, hər nəsildən yüzlərlə, minlərlə babəklər, koroğlular, xətailər meydana girərək öz sözünü deyər.



Bunlar hələ hamısı deyil. Xaçmazın şimal qapısından (bunu şərti olaraq “Dərbənd qapısı” da adlandırmaq olar) keçərək Rusiya sərhədinə doğru irəlilədikcə, hər an ecazkar təbiət lövhələri ilə heyrətamiz dərəcədə uzlaşaraq qeyri-adi harmoniya təşkil edən rahat yollar, yaraşıqlı binalar, bir-birindən daha cəlbedici istirahət məkanları da göz oxşayır. Yollardan söz düşmüşkən, son illər respublikanın digər rayonlarında olduğu kimi, Xaçmazda da bilavasitə respublika Prezidentinin diqqət və qayğısı sayəsində yol infrastrukturunun yenidən qurulması istiqamətində bir sıra iri layihələr həyata keçirilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 2013-cü ildə 6 mindən çox əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən 10 kilometrlik Xaçmaz-Qımılqışlaq-Mollaburhanlı yolu, 2014-cü ildə 3,7 kilometrlik Dalğalı-Nabran yolu, 3,5 kilometrlik Yalama-Xanoba yolu, 2015-ci ildə 8 yaşayış məntəqəsini birləşdirən 10 kilometrlik Qusarçay-Priquluoba-Yeni Həyat yolu, 2016-cı ildə isə 17 yaşayış məntəqəsini əhatə edən 23 kilometrlik Yalama-Zuxuloba yolu əsaslı şəkildə yenidən qurulub. Uzunluğu 12 kilometr olan Qusarçay-Dədəli yolu isə Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə tam şəkildə yenidən qurulub. Bu yolların yenidən qurulması üçün ümumilikdə 20 milyon manatdan çox dövlət vəsaiti xərclənib.

Göründüyü kimi, son illər Xaçmazda tikinti, abadlıq və quruculuq işləri sahəsində olduqca böyük uğurlar əldə olunub. Bu uğurlardan söhbət açarkən onu da nəzərdən qaçırmaq olmaz ki, Xaçmaz həm də respublikanın ən iri kənd təsərrüfatı rayonlarından biridir. Ötən onilliklərdə elə dönəm olub ki, rayonlarda az qala bütün diqqət və resurslar ancaq və ancaq bitkiçilik və heyvandarlığın inkişafına yönəlib. Amma müstəqillik dönəmində təkcə aqrar sektor deyil, həm də insanların rifahına yönələn sosial layihələrin icrası da daim diqqət mərkəzində olub. Fərəhli haldır ki, müstəqillik illərində xaçmazlılar aqrar sektorun inkişaf etdirilməsi istiqamətində də çox ciddi uğurlara imza atıblar. Gəlin, bəzi rəqəmlərə nəzər salaq. Məsələn, cari təsərrüfat ilində rayon üzrə 32,7 min hektar taxıl sahəsindən 110 min tondan çox məhsul toplanıb. Rayonun tarixində ilk dəfədir ki, taxıl sahələrinin hər hektarından rekord miqdarda – 34 sentnerə yaxın məhsul toplanıb. Rayonun fermer təsərrüfatlarında bəslənən qaramalın sayı 56304 başa, davarın sayı isə 85214 başa çatdırılıb.

Görülən tədbirlər gələcəkdə bu istiqamətdə daha sevindirici nəticələrə təminat yaradır. Bu cəhətdən “Yalama” südlük-maldarlıq dövlət damazlıq müəssisəsinin imkanları xüsusilə ümidvericidir. Məlum olduğu kimi, 2016-cı il sentyabrın 8-də Xaçmaz rayonuna səfəri çərçivəsində Prezident İlham Əliyev Yalama damazlıq müəssisəsinin bazasında yaradılan Yalama aqroparkının açılış mərasimində də iştirak etmişdir. Həmin tədbirdə ölkə Prezidentinə məruzə edildiyi kimi, 523 hektar ərazidə salınan aqroparkın yaradılmasına birinci mərhələdə 20 milyon manat investisiya qoyulub. Layihənin ilkin mərhələsinə uyğun olaraq, 1000 başı sağmal olmaqla 3000 başlıq heyvandarlıq kompleksi, müasir suvarma sistemi olan iri taxılçılıq təsərrüfatı, istehsal gücü saatda 5 ton olan yem zavodu yaradılıb. Zavodun davamlı və fasiləsiz xammala olan tələbatının ödənilməsi məqsədilə tutumu 4,5 min ton olan anbar və saatda 30 ton taxıl qurudan qurğu quraşdırılıb. Aqrolizinq yolu ilə “Simmental” cinsindən olan 1103 baş cins heyvan gətirilib və bu günədək həmin heyvanlardan 601 baş bala alınıb. Daimi yem bazası yaratmaq məqsədilə 128,5 hektar yonca, 228,5 hektar arpa və 100 hektar dənlik qarğıdalı əkilib. Yaxın gələcəkdə Yalama aqroparkında müasir texnologiyanın tətbiq edildiyi, dəyəri 12 milyon manat, gündəlik emal gücü 100 ton olan süd zavodu, 60 hektar ərazidə intensiv bağçılıq, 957 hektar sahədə müasir suvarma sisteminə malik olan iri taxılçılıq təsərrüfatları da yaradılacaq.

Meyvə və tərəvəz istehsalı Xaçmaz fermerlərinin daha çox önəm verdiyi sahələrdir. Fərəhli haldır ki, bu sahənin göstəriciləri də ilbəil artmaqdadır. Məsələn, hər il rayon üzrə orta hesabla 120-130 min ton tərəvəz istehsal olunur. Xaçmaz fermerləri bu il 4,5 min hektar bağdan bol fındıq məhsulu toplamışlar. Növbəti ildə rayon üzrə daha 5,2 min hektar sahədə yeni fındıq bağları salınması planlaşdırılıb.

Hər il istehsal olunan bol meyvə və tərəvəzi saxlamaq Xaçmazın kənd adamları üçün hər zaman çox ciddi problem olub. Artıq bu sahədə də çox ciddi irəliləyişlər müşahidə olunmaqdadır. Qafqazın ən iri emal müəssisələrindən olan Qafqaz konserv zavodunun hər mövsüm 30 min tondan çox məhsul qəbul etmək imkanı var. Yalnız son bir neçə il ərzində rayonda 16,5 min tonluq 9 soyuducu anbar istifadəyə verilib və hazırda daha bir neçə yerdə yeni soyuducu anbarlar tikilməkdədir.

Sovet dövründə çox dəbdə olan belə bir şüar vardı: Hər şeyi kadrlar həll edirlər. Sistem dağılanda çoxları nədənsə bu şüarın əleyhinə çıxdı. Amma həyat göstərdi ki, bu, əslində, bütün dövrlər üçün son dərəcə doğru bir şüardır. Yəni, həqiqətən, əgər kadrlar yerindədirsə, onda işlər də rəvan gedəcək. Əlbəttə, söhbət savadlı, səriştəli və peşəkar kadrlardan gedir. Bu cəhətdən xaçmazlıların bəxti gətirib. Çünki rayon icra hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev özünün səriştəsi, təcrübəsi və işgüzarlığı ilə təkcə digər rayon və şəhərlərə rəhbərlik edən həmkarları arasında deyil, lap elə yüksək dövlət vəzifələrində çalışan kadrlar arasında da xüsusi hörmət və nüfuzu olan bir insandır. O, neçə illərdir ki, Xaçmazda təkcə icra başçısı kimi deyil, bundan qat-qat daha artıq rayon ağsaqqalı kimi hörmət və nüfuz sahibidir. Şəmsəddin müəllimin həm icra başçısı, həm də rayon ağsaqqalı kimi ən böyük üstünlüyü, fərqliliyi, hər şeydən öncə, onun sadə və səmimi insan olmasındadır. Gənclik illərində Heydər Əliyev məktəbində yetişən, püxtələşən bu insan artıq neçə illərdir ki, möhtərəm Prezidentimiz İlham Əliyevin komandasının sadiq üzvü kimi ona həvalə olunan məsul vəzifəni vicdanla və ləyaqətlə yerinə yetirməkdədir. Bu gün onun rəhbərlik etdiyi Xaçmaz Rayon İcra Hakimiyyəti aparatı, sözün tam mənasında, olduqca məsul, çevik və işgüzar bir komanda kimi fəaliyyət göstərir. Xaçmaz rayonunun bütün sahələrdə əldə etdiyi uğurları şərtləndirən ən mühüm amillərdən biri də elə budur.

***Qafar CƏBİYEV,***
***Azərbaycan Respublikasının əməkdar jurnalisti***